DİN

# MÜBARİZ KEŞİKDƏ

11 iyul 2019-cu il
Cümə axşamı
№ 26 (3441)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

*Hörmətli həmvətənlər!*
*Bu gün Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.*
*Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.*
*Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO*

## XAN SARAYI İLƏ BİRGƏ ŞƏKİNİN TARİXİ MƏRKƏZİNİN UNESKO-nun ÜMUMDÜNYA İRS SİYAHISINA DAXİL EDİLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.*
*Əziz həmvətənlər!*
*Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.*
*UNESKO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Ümumdünya İrsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 7 iyul 2019-cu il.*

## BAKININ PİRALLAHI RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİ OLUB

### PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA MƏRASİMDƏ İŞTİRAK EDİBLƏR

İyulun 5-də Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verib.

Mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, təmirli mənzillərdən 37-si birotaqlı, 107-si ikiotaqlı, 126-sı üçotaqlı, 36-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 24 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda Pirallahı rayonundakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.





Sonra Laçın rayonu Bozlu tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, bu təhsil ocağı 220 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən məktəbdə təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib.

Sonra dövlətimizin başçısı və birinci xanım məcburi köçkünlərlə görüşüb söhbət ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

*İyulun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gələn Fransa Respublikasının Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri, sabiq ekologiya, dayanıqlı inkişaf və energetika naziri xanım Seqolen Ruayal ilə görüşü olub.*

**İyulun 7-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib.**

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 3-də "Baker Hughes, a GE company" şirkətinin sədri, prezidenti və Baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.**

*****

***Dövlətimizin başçısı iyulun 4-də Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nın yaradılması haqqında fərman imzalayıb.***

*****

**Ölkəmizin rəhbəri iyulun 4-də Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalayıb.**

*****

***İyulun 6-da Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın Veneto regionunun prezidenti Luka Zayani və İtaliya nümayəndə heyətinin üzvlərini qəbul edib.***

*****

**Dövlətimizin başçısı iyulun 8-də İtaliyanın Turizm, Meşəçilik, Qida və Kənd Təsərrüfatı naziri Gian Marko Centinaionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

*****

***Ölkəmizin rəhbəri iyulun 8-də diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarını təbrik edib.***

*****

**Dövlətimizin başçısı iyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

*****

***İyulun 9-da Azərbaycan Prezidenti İlham Əliyev Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.***

*****

**Dövlətimizin başçısı iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib.**

## AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏR UĞURLA İNKİŞAF EDİR

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək görüşü olub.

Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidentinin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə işçi lanç çərçivəsində geniş tərkibdə görüşü olub.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycana səfəri iyulun 9-da başa çatıb.

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Xaçmaz şəhərində Rayon Polis Şöbəsinin yeni inzibati binasının açılışı olub. Tədbirdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Məlumat verilib ki, tikintisinə ötən ilin oktyabrında başlanılmış 4 mərtəbəli inzibati bina ən müasir standartlara uyğun inşa edilib, bütün zəruri avadanlıq, kommunikasiyalar və texniki qurğularla, mebel və inventarla təmin olunub...

*Bax səh.2.*

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov 2019-cu il iyul ayının 27-də Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

İnformasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal texnologiyaların həyatımıza daxil olması, kompüter şəbəkələrinin qloballaşması yeni növ hüquq pozuntuları silsiləsindən olan kibercinayətkarlığın yaranmasına səbəb olub. DİN rəhbərliyi tərəfindən də bu sahədə mübarizənin labüdlüyü nəzərə alınaraq, elektron məlumatların cinayətlərin törədilməsində istifadə edilməsinin qarşısını almaq üçün kibercibayətkarlıqla mübarizə sahəsində də mühüm addımlar atılıb...

*Bax səh.2.*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ DİN-in ƏLAHİDDƏ ÇEVİK POLİS ALAYINDA VAKANT POLİS NƏFƏRİ (GECƏ XİDMƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il iyul ayının 20-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən DİN-in Əlahiddə Çevik Polis Alayında vakant polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcək.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı şəhərində yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012)-590-97-52; (012)-590-94-12; (012)-590-92-37; (012)-590-93-45.**

***Daxili İşlər Nazirliyi***

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Xaçmaz şəhərində Rayon Polis Şöbəsinin yeni inzibati binasının açılışı olub. Tədbirdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.**





Məlumat verilib ki, tikintisinə ötən ilin oktyabrında başlanılmış 4 mərtəbəli inzibati bina ən müasir standartlara uyğun inşa edilib, bütün zəruri avadanlıq, kommunikasiyalar və texniki qurğularla, mebel və inventarla təmin olunub.

Binada ventilyasiya, mərkəzi istilik sistemi, qazanxana və rabitə-kommunikasiya xətləri quraşdırılıb, digər yardımçı sahələr yaradılıb, şöbənin həyətində polis əməkdaşları üçün yeni yeməkxana tikilərək istifadəyə verilib. Ərazi hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

General-polkovnik Vilayət Eyvazov və tədbirdə iştirak edən Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Növbətçi hissəyə, xidməti otaqlara və digər yardımçı sahələrə baxıblar, ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olublar.

DİN rəhbəri görülən işləri yüksək qiymətləndirib, polisin fəaliyyət göstərməsi üçün hər cür şəraitin yaradılmasından məmnunluğunu bildirib, tövsiyələrini verib. Nazir vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daxili işlər orqanlarının ictimai qaydanın qorunmasında, cinayətkarlıqla qətiyyətli mübarizədə, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan hüquq və azadlıqlarının təminində müstəsna rolunu hər zaman yüksək qiymətləndirir, onun lazımi texniki vasitələr və avadanlıqlarla təchizatına xüsusi diqqət yetirir. Məhz belə ali diqqət və qayğı sayəsində Daxili İşlər Nazirliyi müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunmuşdur, şəxsi heyətin iş, həmçinin sosial-məişət şəraiti ilbəil yaxşılaşmaqdadır.

Daxili İşlər naziri əmin olduğunu bildirib ki, Xaçmaz RPŞ-nin şəxsi heyəti bu diqqət və qayğıya layiqli xidməti ilə cavab verəcək, rayonda sabitliyin, əmin-amanlığın nümunəvi qorunmasına və cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz töhfəsini əsirgəməyəcək.

***8 iyul 2019-cu il.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**İyulun 10-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı xanım Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Qonaqları salamlayan nazir ATƏT-in Media və KİV azadlığı üzrə nümayəndəsi kimi əvvəllər ölkəmizə səfərləri zamanı xanım D.Miyatoviçlə keçirilən görüşlərdə insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər, bu sahədə fəaliyyətin səmərəliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi barədə aparılmış müzakirələrin çox faydalı olduğunu xatırladıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin hüquq-mühafizə orqanlarının qarşısında qoyduğu ən mühüm vəzifələrdən birinin insan haqlarının qorunması olduğunu vurğulayan general-polkovnik V.Eyvazov bu istiqamətdə Daxili İşlər Nazirliyi ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığını, vətəndaşlarla kobud rəftarın və polisin nüfuzuna xələl gətirən digər neqativ halların qarşısının alınması sahəsində də davamlı iş aparıldığını nəzərə çatdırıb.

Peşəkarlığın, dünyagörüşün artırılması, beynəlxalq təcrübənin tətbiqi yönündə görülən işlərin məqsədyönlü və sistemli şəkildə həyata keçirildiyini qeyd edən nazir bildirib ki, daxili işlər orqanlarının əməkdaşları müxtəlif dövlətlərə, o cümlədən Amerika Birləşmiş Ştatlarına və Avropaya təlimlər keçməyə göndərilir, təcrübəli beynəlxalq ekspertlərin iştirakı ilə ölkəmizdə seminarlar, treninqlər, kurslar təşkil olunur. Yalnız insan hüquqları üzrə Azərbaycanda və xarici dövlətlərdə keçirilən tədbirlərdə son 5 ildə DİN-in 3 minə yaxın əməkdaşı iştirak edib.

Qonağın nəzərinə çatdırılıb ki, korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, o cümlədən məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi məqsədilə əhaliyə 28 istiqamət üzrə elektron xidmət göstərilir.

General-polkovnik V.Eyvazov bildirib ki, nazirliyin "102" Xidməti-Zəng Mərkəzi" Sisteminin və "Təhlükəsiz Şəhər" Xidmətinin fəaliyyəti məhz insan amili kimi ali prinsip üzərində qurulub, DİN-də yaradılmış digər qaynar xətlər («902» və «1002»), ayrı-ayrı struktur qurumların elektron poçt ünvanları, sahibkarların hüquqlarının pozulması ilə bağlı müraciətlərə baxan Apelyasiya Şurası daxil olan müraciətlərin operativ həllinə, vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz tədbirlərin görülməsinə xidmət edir.

Avropa Şurası komissarının diqqətinə o da çatdırılıb ki, polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə müraciətlər DİN-in aidiyyatı idarəsi tərəfindən operativ, obyektiv şəkildə araşdırılır, nəticələri məruzə olunaraq müvafiq tədbirlər görülür. Təkcə son 5 il və cari ilin birinci yarısında vətəndaşlarla kobud rəftara, müxtəlif hüquqpozmalara, bir sözlə, vətəndaş hüquqlarını pozduqlarına görə 2040 əməkdaş intizam məsuliyyətinə cəb olunub. Tutulmuş və ya həbs olunmuş şəxslərə işgəncə vermə və ya onlarla qeyri-insani rəftar halları qeydə alınmayıb. Qeyd olunan müddətdə beynəlxalq və yerli hüquq müdafiə təşkilatları tərəfindən ərazi polis orqanlarının Müvəqqəti Saxlama Yerlərində (MSY) 1318 monitorinq keçirilib. Onların hamısında əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, MSY-lər müasir videomüşahidə nəzarət kameraları ilə təchiz edilib.

Xanım Dunya Miyatoviç qəbula və ətraflı məlumata görə təşəkkür edib, Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini, budəfəki səfərində əsas məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində hərtərəfli yardım göstərmək, bu prosesə dəstək vermək olduğunu xatırladıb. O, Avropa Şurasının təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən demokratik islahatlar prosesində polis orqanlarının bundan sonra da fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

Səmimilik şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***10 iyul 2019-cu il.***

# ƏMƏKDAŞLIQ PROTOKOLU İMZALANIB

**İnformasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal texnologiyaların həyatımıza daxil olması, kompüter şəbəkələrinin qloballaşması yeni növ hüquq pozuntuları silsiləsindən olan kibercinayətkarlığın yaranmasına səbəb olub. DİN rəhbərliyi tərəfindən bu sahədə mübarizənin labüdlüyü nəzərə alınaraq, elektron məlumatların cinayətlərin törədilməsində istifadə edilməsinin qarşısını almaq üçün kibercinayətkarlıqla mübarizə sahəsində də mühüm addımlar atılıb. BMCMİ-də Kibercinayətkarlıqla mübarizə şöbəsinin yaradılması, Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna başlanılması bunun əyani sübutudur.**





Bu sahədə nəzəri biliklərin artırılması üçün mütəxəssislər hazırlayan ali təhsil müəssisələri arasında əməkdaşlığın, sıx münasibətlərin yaradılması günümüzün tələbinə çevrilib. Bütün bunlar nəzərə alınaraq, iyunun 9-da Polis Akademiyası ilə Azərbaycan Texniki Universiteti arasında elm və təhsil sahələrində əməkdaşlığa dair protokolun imzalanma mərasimi keçirilib. Tədbirdə akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev, ATU-nun rektor əvəzi, professor Xalıq Yahudov, hər iki təhsil müəssisəsinin nümayəndələri iştirak ediblər.

Qonaqlar əvvəlcə Polis Akademiyasının yeni tədris binasında kursantların hərtərəfli təhsil alması üçün yaradılan şəraitlə tanış olublar.

Sonra akademiyanın tarixi və müasir dövünü özündə əks etdirən film nümayiş etdirilib.

Daha sonra hər iki ali təhsil müəssisənin rəhbərləri elm və təhsil sahələrində əməkdaşlığa dair protokolu imzalayıblar.

Tədbirdə çıxış edən polis general-mayoru Nazim Əliyev ölkədə informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması sahəsində ciddi işlər aparıldığını qeyd edib. O, Azərbaycanda informasiya təhlükəsizliyinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində mühüm qanunların, normativ aktların və sərəncamların verildiyini, bağlanan əməkdaşlıq protokolunun da bu iki təhsil müəssisənin professor-müəllim heyətinə öz biliklərini kursantlarla və tələbələrlə bölüşmək üçün geniş imkanlar yaradacağını söyləyib.

ATU-nun rektor əvəzi, professor Xalıq Yahudov qeyd edib ki, milli informasiya ehtiyatlarının qorunması, informasiya sahəsində milli maraqların müdafiəsi milli təhlükəsizlik siyasətinin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. O, rəhbərlik etdiyi ali təhsil müəssisəsi ilə Polis Akademiyası arasında bağlanan əməkdaşlıq protokolu çərçivəsində bundan sonra informasiya təhlükəsizliyinin təmini problemlərinin elmi-nəzəri əsaslarının birlikdə araşdırılacağını, dünyada bu sahədə görülən işlər və əldə edilən təcrübənin birgə öyrəniləcəyini qeyd edib.

Mərasimdən sonra Polis Akademiyasında informasiya-kommunikasiya sahəsində təhlükəsizliyin təmin edilməsi mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda informasiya təhlükəsizliyinin qanunvericilik bazasının formalaşdırılması, ağıllı elektron dövlətin informasiya təhlükəsizliyi, cinayət qanunvericiliyində kiber-təhlükəsizlik və kiber-cinayətkarlıqla bağlı məsələlər, vebserverlərə hücum metodlarının analizi mövzularında çıxışlar edilib, təcrübə mübadiləsi aparılıb.

***Anar Qafarov,***
***polis baş leytenantı***

**2018-ci il ərzində daxili işlər orqanlarında nizam-intizama və qanunçuluğa riayət olunması ilə bağlı statistik məlumatları açıqlanıb. Ötən il ərzində nümunəvi xidmətlərinə, o cümlədən, ictimai asayişin mühafizəsində, cinayətkarlığa qarşı mübarizədə əldə etdikləri nailiyyətlərə görə daxili işlər orqanlarının 15.715 əməkdaşı mükafatlandırılıb.**

# STATİSTİK MƏLUMATLAR AÇIQLANIB

Daxili işlər orqanları üzrə istər xidmətdə, istərsə də xidmətdən kənar vaxtlarda nizam-intizam qaydalarının, həmçinin, qanunçuluğun tələblərinin pozulması hallarına yol verdiklərinə görə 5.103 nəfər əməkdaş cəzalandırılıb.

2018-ci ildə daxili işlər orqanları əməkdaşları tərəfindən qanun pozuntusuna yol verilməsi ilə bağlı 370 fakt qeydə alınıb, buna görə 487 nəfər əməkdaş müvafiq qaydada cəzalandırılıb, onlardan 92 nəfəri daxili işlər orqanlarında xidmətdən xaric olunub.

O cümlədən, polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması ilə bağlı 297 fakt qeydə alınıb, bu cür neqativ hərəkətlərinə görə 400 əməkdaş intizam məsuliyyətinə cəlb olunub, onlardan 27 nəfəri daxili işlər orqanlarında xidmətdən xaric olunub.

Ümumilikdə, 296 nəfər əməkdaş mənfi motivlərlə, o cümlədən narkotik vasitələrdən qanunsuz istifadə etdiklərinə görə 20 nəfər, spirtli içkilərə aludəçilik etdiklərinə görə isə 10 nəfər əməkdaş daxili işlər orqanlarında xidmətdən xaric olunub.

# PAYTAXT POLİSİ HESABAT VERDİ

**İyulun 10-da Bakı Şəhər Baş Polis İdarəsində bu ilin birinci yarısında cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini, əməliyyat-xidməti fəaliyyətinin digər sahələrində görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib. Müşavirəni açan Baş idarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən quruculuq işləri, fəal hüquq-mühafizə siyasəti daxili işlər orqanlarının, o cümlədən paytaxt polisinin də fəaliyyətinin təkminləşməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə öz müsbət təsirini göstərib.**




Sonra BPİ rəisinin əməliyyat işləri üzrə müavini, polis general-mayoru Elxan Həsənov cari ilin 6 ayında paytaxtın polis orqan və hissələri tərəfindən həyata keçirilən tədbirlərin nəticələri və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 2019-cu ilin 6 ayı ərzində paytaxtda Daxili İşlər nazirliyi və Prokurorluq üzrə 5496 cinayət qeydə alınıb. Onların da 87,4 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 12,6 faizi isə ağır və xüsusilə ağır növlər olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlər 3,2 faiz, böyük ictimai təhlükə törətməyən cinayətlər 13,8 faiz, ehtiyatsızlıqdan adam öldürmələr 2,7 dəfə, mülkiyyət əleyhinə cinayətlər 9,1 faiz, dələduzluqlar 32,8 faiz, ölümlə nəticələnən yol nəqliyyat hadisələri isə 10,4 faiz azalıb.

Məruzəçi cinayətlərin 75,4 faizinin, ağır növlərinin 83,4 faizinin, qeyri-aşkar şəraitdə baş verənlərin 61,4 faizinin açılmasının təmin olunduğunu diqqətə çatdırıb, şəxsiyyət əleyhinə olan cinayətlərin 96 faiznin, adam öldürməyə cəhdlərin isə 100 faiz açıldığını bildirib. Cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olduğu vurğulanıb. Baş İdarənin və ərazi polis orqanlarının "Təhlükəsiz şəhər" xidmətinin operatorları tərəfindən 2.796 hadisə aşkarlanıb, kameraların arxiv görüntülərindən istifadə edilməklə 123 bağlı cinayət açılıb. Bununla yanaşı, 23 soyğunçuluq və quldurluq cinayəti törətmiş 21 nəfərdən ibarət 13 qrup, eləcə də 51 mənzil oğurluğu törədən 67 nəfərdən ibarət 30 cinayətkar qrup ifşa olunub, narkotiklərlə bağlı aşkarlanan 681 fakt üzrə qanunsuz dövriyyədən 303 kiloqramdan çox narkotik vasitə çıxarılıb, istintaqı tamamlanan cinayət işləri üzrə vətəndaşlara dəyən maddi ziyanın 92,8 fazinin ödətdirilməsi təmin olunub.

Bildirilib ki, paytaxt ərazisində qeydə alınan 244 yol-nəqliyyat hadisəsində 77 nəfər ölüb, 216 şəxs müxtəlif dərəcəli xəsarət alıb. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 17,6 faiz, ölənlərin sayı 23 faiz, yaralıların sayı isə 15,6 faiz azalıb.

Məruzədə o da qeyd olunub ki, vətəndaşların ərizə və şikayətlərinə baxılması, onların qəbulu işi ciddi nəzarətdə saxlanılmaqla, 913 vətəndaş qəbul edilib. Müraciətlərin 2230 Nazirliyin və Baş İdarənin rəhbərliyi tərəfindən nəzarətə götürülüb.

Məruzə ətrafı çıxışlarda BPİ-nin və rayon polis idarələrinin rəisləri əldə olunan müsbət nəticələrlə yanaşı, əməliyyat-xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqları qeyd edərək, onların aradan qaldırılması üçün təsirli tədbirlərin həyata keçiriləcəyinə söz veriblər.

Baş idarə rəisi paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyətini ümumən müsbət qiymətləndirib, müxtəlif hüquqpozmaların, o cümlədən insan hüquq və azadlıqlarının pozulması hallarının əvvəlki dövrlə müqayisədə xeyli azaldığını xüsusi vurğulayıb.

O, müşavirə iştirakçılarının diqqətini qarşıda duran bir sıra həlli vacib məsələlərə yönəldib, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun konkret tapşırıq və tövsiyələrini çatdırıb, nöqsanların aradan qaldırılması yollarını göstərib.



Müşavirəyə yekun vuran polis general-mayoru Mirqafar Seyidov Daxili İşlər Nazirliyinin rəhbərliyini, şəxsən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovu əmin edib ki, paytaxt polisi bundan sonra da şəhər ərazisində cinayətkarlıqla qətiyyətli mübarizəni əzmlə davam etdirəcək, sabitliyin, əmin-amanlığın, ictimai asayişin nümunəvi təmini istiqamətində qarşıya qoyulan bütün tapşırıqları və vəzifələri yüksək məsuliyyətlə və peşəkarlıqla yerinə yetirəcək.

***Bakı Şəhər Baş Polis İdarəsi***

# BİRGƏ REYD KEÇİRİLİB

**Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Dövlət Təhlükəsizliyi Xidməti paytaxtın Suraxanı rayonunun Qaraçuxur qəsəbəsi məscidi ətrafında birgə reyd keçirib.**

Reyd zamanı Mingəçevir şəhər sakini K.Hüseynzadə tərəfindən küçə ticarəti formatında dini təyinatlı ədəbiyyatın qeyri-qanuni satışı faktı aşkarlanıb. İlkin baxış və araşdırma zamanı müvafiq icazəsi olmadan satılan, dini radikalizm və ekstremizmin təbliğində şübhəli bilinən 180 dini ədəbiyyat ekspertiza üçün götürülüb.

K.Hüseynzadə barəsində İnzibati Xətalar Məcəlləsinin 516.0.2-ci maddəsi ilə protokol tərtib edilib.

Faktla bağlı müvafiq araşdırma aparılır.

Qeyd edək ki, monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

# İTALİYADA YARIŞDILAR

**Bu yaxınlarda İtaliyanın Faenza şəhərində sərbəst güləş üzrə yeniyetmələr arasında Avropa birinciliyi keçirilib. Qitənin 30-dan çox ölkəsindən 100-ə yaxın idmançının qatıldığı yarışda ölkəmiz də təcrübəli idmançılarla təmsil olunub.**

**Milli komandamızın tərkibində DİN İdman Cəmiyyətinin yetirmələri də qələbə uğrunda inamlı mübarizə aparıblar.**



DİN Daxili Qoşunlarının İdman komandasının hərbi qulluqçusu, mayor Elşad Allahverdiyevin yetirməsi Sabir Cəfərov çəkisi 61 kiloqramadək olan idmançılar arasında bütün rəqiblərini məğlub edərək qızıl medala sahib olub.

Təmsilçilərimizdən Kənan Heybətov üçün də bu yarış uğurlu olub. O, çəkisi 51 kiloqramadək olan idmançıların mübarizəsində finaladək irəliləyərək bürünc medal qazanıb.

K.Heybətovu bu yarışa Cəmiyyətin İdman təlimi şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlyas Siracov hazırlayıb.

Qadınların yarışında isə yetirməmiz Birgül Soltanova fərqlənməyi bacarıb. O çəkisi 57 kiloqramadək olan idmançılar arasında üçüncü yerə sahib olub.

Qadın təmsilçimizin məşqçisi Sumqayıt ŞPİ-nin əməkdaşı, polis serjantı Tural Əliyevdir.

Qeyd edək ki, hər üç idmançımız iyulun 20-dən 30-dək ölkəmizdə keçiriləcək gənclərin Avropa festivalında DİN İdman Cəmiyyətini təmsil edəcək.

Qalibləri qəbul edən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova onlara gələcək yarışlarda uğurlar arzulayıb.

*Zeyni Hüseynov*

**Eyni gündə insan ölümü ilə nəticələnək iki hadisənin qarşısının elə insanların gözü önündəcə alınması polisin riskli bir peşə olmasının bariz nümunəsi idi. Onlar olmasaydılar üzləşdiyi problemdən çıxış yolu tapmaqda çətinlik çəkən gənc həyatla vaxtsız vidalaşar, digər biri isə qatil olaraq ömürünün qalan hissəsini dəmir barmaqlıqlar arasında keçirərdi.**

Sayıqlıq, peşəsinə sevgi və öz həyatını qurban vermək bahasına olsa belə xilaskarlıq ənənəsinə sadiqlik Metropolitendə Polis Şöbəsinin əməkdaşlarının həm xidmət, həm də həyat devizidir. Hər gün yüz minlərlə insanla üzbəüz gəlmək, onları yoxlamaq, köməyə ehtiyacı olana köməklik göstərmək vəzifə, həm də insanlıq borcudur. Metro strateji əhəmiyyətli obyekt olmaqla yanaşı, obrazlı desək, insanlarımızın həyatının etibar ediləyi, elə etibarlı, daha güvəncli qorunan, yerin altı olsa belə, yerin üstündəki kimi rahat bir dünyadır.

Mənzil başına tez və təhlükəsiz çatmaq üçün dəmir relslər üzərində şütüyən vaqonların, səhər saat 06:00-dan 24:00-dək insanların təhlükəsizliyini qoruyan polislərimiz yorulmur, usanmırlar.

Yazımızın mövzusu olan hər iki hadisə barədə ətraflı məlumat almaq üçün Şöbə rəisi, polis polkovniki Samir Hüseynova müraciət edəndə: "Həmin günün, xilaskarları ilə görüşsəniz daha yaxşı olar",- dedi.



# SAYIQ OLMASAYDILAR...

**Polis baş serjantı Habil Nəcəfov:** "Gün ərzində müxtəlif hadisələrlə rastlaşırıq. Bu 22 illik xidmət dövründə polis həyatının acılı-şirinli, riskli anlarına yaxınlarım, dostlarım, elə bizi hər gün xidmət başında görən insanlar da şahidlik edib. Bir neçə gün öncə baş verən hadisə isə mənə bir başqa cür təsir etdi. Gördüm ki, bir oğlan "Yaşamaqdan bezmişəm, məni heç kim anlamaq istəmir",-deyib özünü relslərin üstünə atmaq istəyir. Bu an qatar da tuneldə göründü. Hamı təlaş içində idi. İnsanların həyacan dolu qışqırtısı aləmi bürümüşdü. Gecikmək olmazdı. Digər həmkarlarımın köməyi ilə metro əməkdaşları ilə əlaqə saxladıqdan sonra cərəyanı relslərdən ayırdılar, qatarı saxlatdılar. Beləcə, bir insanın da həyatını xilas etdik. Həmin gənclə söhbət aparıb, problemlərini öyrəndik. Sonra valideynlərini çağırıb ona dəstək olmalarını tövsiyə etdik"...

"Metronun bağlanmasına az qalmışdı. Bir şəxsin "Milliön" aparatına yaxınlaşıb kontur yüklədikdən sonra ucadan kiminləsə əsəbi danışması, özünü şübhəli aparması diqqətimi çəkdi. Birdən kürəyindəki baltanı görəndə məsələnin ciddiliyinin fərqinə vardım. Köməyə kimisə çağırmağa tələsmədim, çünki duyuq düşə bilərdi. Yaxınlaşıb üstündəki balta ilə metroya keçə bilməyəcəyini bildirdim. O isə cavabında: "Mən adam öldürməyə gedirəm",- deyəndə, düzü, tutulan kimi oldum, ancaq özümü tez də ələ aldım. Ötən 9 ildə ilk dəfə idi ki, adam öldürəcəyini etiraf edən biri ilə rastlaşırdım. Baltanı alıb onu xidməti otağımıza dəvət etdim. Hirsindən əsim-əsim əsirdi. "Evində işlədib pulumu vermədi, üstəlik ailəmi də təhqir etdi, mən onu öldürməliyəm",-deyib durdu. Psixoloji söhbət apardım, sakitləşdirdim, onu təhqir edən şəxsin qanun qarşısında cavab verəcəyini bildirdim".

Bunları da bir insanı qatil olmaqdan çəkindirən **polis serjantı Kamil Novruzov** diqqətimizə çatdırdı.

Baş verən hadisələrin təhqiqatını aparmaq, şübhəlilərin və ya zərərçəkmişlərin izahatını almaq üçün günün istənilən vaxtında təhqiqatçı polis əməkdaşı yerində olmalıdır. Araşdırmalar nəticəsində qanunazidd hərəkətə, törədilən cinayətə də ilk hüquqi qiymətin təhqiqatçılar verir və qanunun tələbləri çərçivəsində, əlbəttə ki, sonrakı prosedurlar həyata keçirilir. Elə qeyd etdiyimiz hər iki hadisənin ilkin təhqiqatını da **baş təhqiqatçı, polis mayoru Samir Axundov** aparıb.

*Hafiz Təmirov, polis mayoru*

# ELAN

**Daxili İşlər Nazirliyi Tibb İdarəsinə bilavasitə tabe olan A.N.Heydərov adına Respublika Hospitalının nəzdində Reabilitasiya Mərkəzində vakant olan 2 həkim-fizioterapevt və 2 tibb bacısı vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

***Həkimlər üçün müsabiqədə*** Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, fizioterapiya və tibbi bərpa ixtisası üzrə rezidentura təhsili almış, ixtisası üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqədə iştirak edə bilərlər.

***Tibb bacıları üçün müsabiqədə*** Azərbaycan Respublikasının dövlət orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, yaşı 25-dən yuxarı olmayan, fizioterapiya və tibbi bərpa ixtisası üzrə azı 3 il praktiki təcrübəyə malik, boyu 160 santimetrdən aşağı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən, ***Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqədə iştirak edə bilərlər.***

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu ilin iyun ayının 15-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin **medical@ mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**-Şəxsiyyət vəsiqəsi**
**-Təhsil haqqında diplom**
**-Əmək kitabçası**

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59; (012) 590-20-94.**

**Daxili İşlər Nazirliyi Tibb İdarəsinin müalicə-profilaktika müəssisələrində vakant olan 7 tibb bacısı, 2 rentgen-laborant və 1 tibb qeydiyyatçısı vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan Respublikasının dövlət orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, yaşı 25-dən yuxarı olmayan, ixtisası üzrə azı 3 il praktik təcrübəyə malik, boyu 160 santimetrdən aşağı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, ***Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.***

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il iyun ayının 15-dən iyul ayının 15-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin **medical@mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**-Şəxsiyyət vəsiqəsi**
**-Təhsil haqqında diplom**
**-Əmək kitabçasının surəti**

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59; (012) 590-20-94.**

# "POLİS GÜNÜ"nə HƏSR OLUNAN YARIŞLAR KEÇİRİLİB




**Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Azərbaycan Polisinin 101 illiyinə həsr olunmuş silsilə idman tədbirləri keçirilib.**

Yarışların açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova Azərbaycan Polisinin ulu öndər Heydər Əliyevin dövlətçilik xəttinə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasətinə həmişə sadiq olduğunu və bunun daxili işlər orqanlarının əməkdaşları üçün ən böyük şərəf və qürur mənbəyi olduğunu diqqətə çatdırıb. Ölkəmizin sarsılmaz təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafında, dövlətçiliyin qorunmasında, asayişin mühafizəsində, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında daxili işlər orqanlarının mühüm xidmətlərindən danışan polis polkovniki ölkə rəhbərliyinin daxili işlər orqanlarına, o cümlədən idmançı əməkdaşlara diqqət və qayğısını xüsusilə vurğulayıb.

Daha sonra çıxış edən İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov Azərbaycanın dünyada






idman ölkəsi kimi tanındığını, ilk Avropa və IV İslam Həmrəyliyi Oyunlarının, eləcə də ayrı-ayrı idman növləri üzrə dünya, Avropa çempionatlarının, Qran-Pri yarışlarının, mötəbər turnirlərin ölkəmizdə keçirilməsinin bunun ən gözəl nümunəsi olduğunu deyib.

Daxili Qoşunların Baş İdarəsinin İdman komandasının rəisi, polkovnik Namiq Abdullayev və Olimpiya çempionu Lyudmila Şubina idmançılara uğurlar arzulayıblar.

Cəmiyyətin İdman təlimi şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlyas Siracov bildirib ki, insanların fiziki və mənəvi sağlamlığında mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi uşaq və gənclərin bu sahəyə fəal surətdə cəlb olunmasına şərait yaradıb. İdmanla məşğul olan hər bir kəs sağlam, qüvvətli, iradəli şəxsiyyət kimi yetişir.

Silsilə tədbirlər çərçivəsində iyunun 22-də keçirilən cüdo yarışında müxtəlif yaş qrupları və çəki dərəcələri üzrə 100-ə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb.

İyulun 1-də isə sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr və gənclər arasında növbəti birincilik keçirilib. Birincilikdə müxtəlif çəki dərəcələri üzrə 100-dən çox idmançı öz gücünü sınayıb.

Tədbirlərin sonuncu günü - iyulun 2-də boks üzrə yeniyetmələr və gənclər arasında birincilik keçirilib. Yarışda 5 komandadan müxtəlif çəki dərəcələri üzrə 100-dən çox idmançı baş mükafat uğrunda mübarizə aparıb.

Sonda qaliblərə diplom və medallar təqdim olunub.

*Zeyni Hüseynov, polis serjantı*

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

# SUYUN ÇİRKLƏNDİRİLDİYİ AŞKAR EDİLİB

**Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə sanitar-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir.**

Paytaxtın Sabunçu rayonu ərazisində keçirilmiş növbəti belə tədbir zamanı Biləsuvar rayon sakini E.Əmirovun "QAZ-53" markalı avtomobili ilə rayon ərazisindəki gölə çirkab sularını axıtması faktı aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 264-cü (su obyektlərinin mühafizəsi qaydalarının pozulması) maddəsinin tələblərini pozduğuna görə E.Əmirov barəsində protokol tərtib edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

"Kasperski laboratoriyası" şirkəti İnterpolun yüksək texnologiyalar sahəsində təhqiqatlarla məşğul olan xüsusi bölməsi ilə əməkdaşlıq haqqında sazişin müddətini uzadıb.

Əməkdaşlıq çərçivəsində şirkət beynəlxalq polis təşkilatına kibercinayətlərin araşdırılmasında geniş konsultasiya dəstəyi göstərəcək, təşkilatın əməkdaşları üçün təlimlər keçirəcək və müasir rəqəmli təhlükələr haqqında məlumatlar, eləcə də onların öyrənilməsi üçün alətlər təqdim edəcək. Bundan başqa, şirkət İnterpolun dünyanın müxtəlif ölkələrinin hüquq-mühafizə orqanlarının İT təhdidləri və cinayətkarlarla mübarizədə ekspertizasının genişləndirilməsi ilə bağlı təşəbbüslərini dəstəkləyəcək.

*****




*Dubay polisinin xidməti fəaliyyətində təhlükəsizliyin təmin edilməsi sahəsində "Oyoon" kimi "ağıllı" sistemlərin tətbiqi nəticəsində "Palm Jumeirah" və "Emirates Hills"də bu il ərzində bir cinayət belə qeydə alınmayıb.*

*Bu sistem süni intellekt və böyük məlumatların analizi bazası üzərində qurulub. Dubay polisinin nümayəndəsi bildirib ki, həmişə birinci olmağa çalışırlar və cinayətkarlıqla mübarizədə ən müasir texnologiyalardan istifadə edirlər. Onun sözlərinə görə, məlumatların analizi mərkəzi cinayətlərin açılmasında və şəhərin təhlükəsizliyi sistemindəki çatışmazlıqların aşkar edilməsində böyük rol oynayıb.*

*"Oyoon" şəbəkə layihəsi çərçivəsində videonəzarət kameraları real zaman rejimində şəhər ərazisində baş verən təhlükəli hadisələr barədə məlumatları analiz mərkəzinə göndərir. Kameralar turizm, yol nəqliyyatı və digər sektorlardakı qanun pozuntularına nəzarət edir. Polis cinayətkarları izləmək üçün süni intellektdən və üzlərin tanınması texnologiyasından istifadə edir.*

*****

Qazaxıstanda xarici nömrəli avtomobillərin hərəkəti məhdudlaşdırıla bilər. Bunu Daxili İşlər naziri Yerlan Turqumbayev deyib. Onun sözlərinə görə, xarici ölkələrdə qeydiyyatdan keçmiş maşınlarla bağlı xeyli sayda şikayətlər daxil olur: "Həmin avtomobillərin sürücüləri yol-hərəkət qaydalarını tez-tez pozurlar. Biz belə avtomobillərin Qazaxıstan ərazisinə daxil olduqdan 10 gün sonra ölkədə istismarı üçün məhdudiyyətin tətbiqini tələb edirik".

Nazir əlavə edib ki, bu cür nəqliyyat vasitələrinin sərnişin və yük daşımalarından istifadəsinə qadağa tətbiq edilməlidir.

*****

*Almaniya və Niderland tarixdə ilk hərbi internet yaradılması məqsədilə səylərini birləşdirmək qərarına gəliblər. Məlumata görə, müvafiq razılaşma Brüsseldə NATO ölkələri nazirlərinin iclasında müdafiə nazirləri Ursula fon der Lyayen və Ank Beyleveld arasında imzalanıb.*

*"Tactical Edge Networking" (TEN) adlandırılacaq yeni şəbəkə gələcəkdə bütün NATO ölkələrinin hərbi şəbəkələrini özündə birləşdirəcək.*

*TEN mənzil-qərargahı Almaniyanın Koblents şəhərində yerləşəcək, texnoloji dizayn ilə niderlandlı mütəxəssislər məşğul olacaqlar.*

*Şəbəkənin inkişaf etdirilməsinin dəyəri bir neçə milyon avro məbləğində qiymətləndirilir.*

*N.Cavadov*

# İyul ayının 3-dən 9-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 146 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 37 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 75, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 10, borclu şəxs qismində axtarışda olan 27 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 20 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 70 fakt müəyyən edilmişdir.

# BDYPİ SÜRÜCÜLƏRƏ MÜRACİƏT EDİB

**Baş Dövlət Yol Polisi İdarəsi beynəlxalq yük və sərnişindaşıma fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxsləri, eləcə də şəxsi nəqliyyat vasitələrində xarici ölkələrə səfər etməyə hazırlaşan Azərbaycan Respublikasının vətəndaşlarını məlumatlandırmaq məqsədilə bildirir ki, Gürcüstan və Bolqarıstan respublikalarının yol hərəkəti haqqında qanunvericilik aktlarına bəzi əlavə və dəyişikliklər edilib.**

Əsasən, yol hərəkəti qayda pozuntuları ilə bağlı tətbiq edilən inzibati tənbeh tədbirlərinə, hərəkətin məhdudlaşdırılması hallarına və müəyyən kateqoriyalı nəqliyyat vasitələrinin icazə verilən maksimum çəki və ölçü parametrlərinə dair qaydalara edilmiş həmin əlavə və dəyişikliklərlə maraqlanan şəxslər Gürcüstan hökumətinin 01.07.2019-cu il tarixli 393 saylı qərarı, habelə Bolqarıstan Respublikasının müvafiq agentliyinə məxsus **(http://www.api.bg/index.php/en)** veb sayt vasitəsi ilə daha ətraflı məlumat ala bilərlər.

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30